**Layihənin istiqaməti: Regionların sosial-iqtisadi inkişafının təşviq edilməsi**

№ 161 (1049) 1 sentyabr - 2 sentyabr 2015-ci il

AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ YANINDA KÜTLƏVİ İNFORMASİYA VASİTƏLƏRİNİN İNKİŞAFINA DÖVLƏT DƏSTƏYİ FONDU

# Ağsu: Şirvanın ağ şəhəri

**Bu gün Ağsu rayonu öz inkişafının yeni, daha böyük, irimiqyaslı quruculuq dövrünü yaşamaqdadır. Ölkədə nümunəvi fəaliyyətləri ilə seçilənlərin ön sıralarında ağsuluların da təmsil olunması fərəhlidir. Məlumdur ki, dövlət başçısı 2015-ci ili kənd təsərrüfatı ili elan edib və bu sahədə qarşıya mühüm vəzifələr qoyub. Bu vəzifələr Ağsuda da müvəffəqiyyətlə həyata keçirilir.**

Bunu ötən altı ayının yekunlarında da aydın görürük. Rayon rıhbərliyinin məqsədyönlü və gərgin zəhmətinin qanunauyğun nəticələri ondan ibarətdir ki, kənd təsərrüfatının və digər sahələrin dinamik inkişafında yeni bir mərhələyə qədəm qoyulmuşdur. Rayon İcra Hakimiyyətinin başçısı Ənvər Seyidəliyevin rəhbərliyi altında az müddətdə fermer təsərrüfatlarının işi canlandırılmış, tikinti-quruculuq, abadlıq işləri geniş vüsət almış, sosial obyektlərin, ictimai və inzibati binaıların inşası sürətləndirilmiş, park və küçələr, yeni istehsal sahələri sakinlərin istifadəsinə verilmişdir. Dövlət başçısı rayona hər üç səfərində ağsuluların əməyini yüksək qiymətləndirmiş, görülən işlər onda xoş təəssürat yaratmaqla yanaşı, qarşıda duran vəzifələrin həlli istiqamətində öz tövsiyyə və tapşırıqlarını da vermişdir.

Bəli, bu gün Ağsu öz simasını tanınmaz dərəcədə dəyişib, gözəlləşib, füsunkar görkəmli yeni tikililəri ilə hər kəsi valeh edir.

Sevindirici haldır ki, regionların inkişafı üzrə Dövlət proqramının həyata keçirilməsi istiqamətində diqqətçəkən, irimuqyaslı işlər görülmüş, əhalinin yaşayış səviyyəsi daha da yüksəlmişdir.

Yaradılan yeni müəssisələr, çoxsaylı sahibkarlıq obyektləri yeni iş yerlərinin açılması və əhalinin məşğulluğunun təmin edilməsində həlledici əhəmiyyət kəsb etmişdir.

2015-ci ilin ilk altı ayının yekunları sevindirici olmuşdur. Əhalinin və iqtisadiyyatın bütün sahələrinin inkişafına istiqamətlənən 3-cü regional inkişaf proqramı çərçivəsində uğurlu göstəricilərə imza atılmış, nəzərdə tutulan tədbirlər müvəffəqiyyətlə icra olunmuşdur. 2419,1 hektar sahədə yazlıq bitkilərin aratı aparılaraq 493 ton kartof, 2673 ton tərəvəz, 210 ton bostan məhsulları əldə edilmişdir. "Aqrolizinq" vasitəsilə fermerlərə, ailə-kəndli təsərrüfatlarına 427 ton mineral gübrə satılmışdır. Taxıl sahələrinə də yüksək aqrotexniki qulluq göstərilib. "Süsən Aqro" MMC 73 hektar taxıl sahədindən 3659 ton, "Qarabağ taxıl" MMC isə 365 hektardan 1724 ton taxıl əldə edərək yüksək məhsuldarlığa nail olmuşlar.

> **"... Kənd təsərrüfatının inkişafı üçün kreditlər, gübrələr, əlavə texnika verilir. Soyuducu anbarlar, taxıl anbarları tikilir. Yəni, biz istəyirik ki, bu inkişafa daha da güclü təkan verək. Çünki hər bir bölgədə, hər bir kənddə yaxşı şərait olsun, rifah artsın, iş yerləri açılsın və gözəl abadlıq işləri görülsün".**
>
> ***Azərbaycan Respublikasının Prezidenti***
> ***İlham Əliyev***

Buğda və çətik istehsalının artırılması və stimullaşdırılması məqsədilə dövlət yardımının verilməsi də təmin edilmişdir.

Emal müəssisələri də məhsullarının satışı üzrə geniş bazar funksiyasını həyata keçirmişlər. Mal-qaranın cins tərkibi, baş sayı və məhsuldarlığı artmış, ötən illə müqayisədə ət istehsalı 52 ton artaraq 2436 ton, süd istehsalı 44 ton artaraq 13933 ton, yumurta istehsalı 564 min ədəd artaraq 1993 min ədəd, yun istehsalı 3 ton artaraq 301 ton təşkil etmişdir.

İcra başçısı sakinlərlə tez-tez səyyar görüşlər keçirir, onların ehtiyac, qayğı və problemləri dinlənilir, həlli istiqamətində aidiyyatı qurumlara tapşırıq və tövsiyyələr verilir. Bütün bunlar rayonun sosial-mədəni, iqtisadi həyatının inkişafında mühüm rol oynayır.

2015-ci ilin birinci yarısında Sahibkarlığa Kömək Milli Fondunun xətti ilə 50 investisiya layihəsinin maliyyələşdirilməsi üçün 640 min manat güzəştli kredit verilmişdir. Bu isə öz növbəsində yeni iş yerlərinin açılmasına imkan yaradacaqdır.

Şəhər Xiyabanı əsaslı təmir olunub. H.Əliyev küçəsinin yenidən qurulması başa çatdırılıb. C.Cabbarlı, Bakı-Şamaxı-Yevlax yolunun Ağsu ərazisindən keçən hissəsində abadlıq, yaşıllaşdırma işləri görülüb. Şəhərin bir çox küçələri dekorativ daşlarla üzlənib, boyanıb, piyada səkiləri yenidən qurulub, bərpa edilib. M.Ə.Rəsulzadə küçəsində divarların üzlənməsi başa çatdırılıb.

Şəhərdə asfaltlama işləri davam etdirilir. Ətraf mühitin mühafizəsi, ekoloji sabitliyin təmin olunması diqqət mərkəzindədir. "Ümumrespublika Yaşıllaşdırma" marafonu çərçivəsində rayonda ümumilikdə 11 000 ağac əkilməsi də məhz bu zərurətdən yaranmışdır.

Bütün bunlar - quruculuq ab-havası Ağsunu ölkənin dilbər guşələrindən birinə çevirib. Son illərdə görülən işlərin miqyası adamı heyran edir. Səhiyyə və təhsil ocaqları, uşaq bağçaları əsaslı təmir edilib, yeniləri tikilib. Bu möhtəşəm quruculuq işləri bu gün də müvəffəqiyyətlə davam etdirilir. Telekommunikasiya qovşağının, poçt filialının inzibati binasının təmiri başa çatdırılıb. Şəhərdə 100 yerlik uşaq bağçasının yeni binasının, Kənd Təsərrüfat idarəsinin, YAP Ağsu rayon təşkilatının yeni inzibati binasının, idman kompleksinin, "Az-qranta" MMC üçün yeni süzmə sexinin və soyuducu anbar binalarının, şəhid ailələri və Qarabağ müharibəsi əlilləri üçün yeni yaşayış evlərinin, Pirhəsənli, Rəhimli və Calayir kəndlərində modul tipli su təmizləyici qurğuların, çox sayda ticarət, iaşə, məişət və servis xidməti obyektlərinin tikintisi, şahmat məktəbinin yenidən qurulması, şəhərdəki bir sıra sahibkar obyektlərinin üzlənməsi, onların memarlıq görkəminin yaxşılaşdırılması, rayonun kənd və qəsəbələrində nəzərdə tutulan irimiqyaslı təmir-tikinti işləri davam etdirilməkdədir. Bu ilin birinci yarısında 204 nəfər işlə təmin olunub.

Əhalinin sosial müdafiəsinin gücləndirilməsi istiqamətində həyata keçirilən tədbirlər planı da uğurla davam etdirilir. Əhalinin elektrik, su və qazla təminatı da xeyli yaxşılaşdırılmışdır. Qazlaşdırılan yaşayış məntəqələrinin sayı 6-dan 47-yə çatdırılmış, cari ilin ötən aylarında 9 kəndin qazpaylayıcı stansiyasında əsaslı təmir işləri görülmüşdür. Tezliklə səhiyyə içiləri də yeni töhfə alacaqlar. Rayon mərkəzi xəstəxanasının tikintisi uğurla davam etdirilir. Ümumiyyətlə səhiyyə müəssisələri üçün yeni avadanlıqlar alınması daim diqqət mərkəzindədir.

**Ağsu inkişaf yolundadır. Məqsəd rayonda tikinti-quruculuq işlərini daha da genişləndirmək, iqtisadiyyatın dinamik inkişafına nail olmaq, əhalinin güzəranının yaxşılaşdırılmasına nail olmaqdan ibarətdir.**

***Tahir Abdulov***






AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ YANINDA KÜTLƏVİ İNFORMASİYA VASİTƏLƏRİNİN İNKİŞAFINA DÖVLƏT DƏSTƏYİ FONDUNUN MALİYYƏ YARDIMI İLƏ